**Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzi**
**Kulturno - ekonomski centar Azerbajdžana - Crne Gore**
**Azerbaijan - Montenegro Cultural and Economic Centre**

***Podgorica, Nova Dalmatinska 49, tel: + 382 20 273 370, e-mail: az.mn.cec@gmail.com***

# Azərbaycan – Monteneqro Mədəni və İqtisadi mərkəzinin 2017-ci ildəki fəaliyyətinə dair HESABATI

Monteneqronun paytaxtı Podqoritsa şəhərində fəaliyyət göstərən Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzi 2017-ci ildə də aktiv fəaliyyətini davam etdirmiş, Azərbaycanın tarixi və mədəniyyətinin təbliği məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş və əməli işlər görülmüşdür.

2017-ci ildə 20 yanvarla bağlı məqalələr dərc etdirilmiş, Xocalı soyqırımına dair Sarayevoda beynəlxalq konfransın keçirilməsi dəstəklənmiş və orada Monteneqro Baş nazirinin sabiq müavininin iştirakı və çıxışı təmin olunmuş, Monteneqronun bir sıra şəhərlərində soyqırım haqqında bilbordlar yerləşdirilmiş, Türkiyənin Yunus Əmrə və Çinin Konfutsi İnstitutları ilə birlikdə "İpək Yolu" festivalı və azərbaycanlı rəssamın sərgisi keçirilmiş, Azərbaycan mətbəxi nümunələri ilə ənənəvi "Novruz bayramı" qeyd edilmiş, "Əli və Nino" filmi monteneqro dilində Milli Teatrda və daha sonra RTCG ictimai televiziyasında nümayiş etdirilmiş, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum günü münasibətilə futbol və həndbol turniri təşkil edilmiş, "18 oktyabr" məktəbi ilə birlikdə Azərbaycanın müstəqillik günü qeyd olunmuş, 17 noyabr tarixində - Dirçəliş günü münasibətilə "Heydər Əliyev Fondu"nun sifarişi ilə hazırlanmış və monteneqro dilində subtitrlərlə tərcümə edilmiş "Bir Günəş altında" sənədli filmi nümayiş etdirilmiş və "Milad bazar"ında Azərbaycan guşəsinin təqdimatı keçirilmişdir.

Mərkəz, 2017-ci ilin 25 sentyabr tarixindən yeni ünvanda fəaliyyətini davam etdirməyə başlamışdır. Belə ki, aktiv və səmərəli fəaliyyətinə görə, Mərkəz, Monteneqro Nazirlər Kabinetinin 8 dekabr 2016-cı il tarixində keçirilmiş növbəti iclasında hökumət üzvlərinin yekdil qərarı ilə paytaxt Podqoritsa şəhərində yeni inşa olunan binada ödənişsiz və müddətsiz olaraq, 210 m2-lik (əvvəlki ünvan Bar şəhərində 48 m2-lik ofis idi) ofislə təmin edilmişdir.

- Belqrad şəhərində yerləşən və Cənub-Şərqi Avropanın ən qədim elmi-tədqiqat ocaqlarından olan Beynəlxalq Siyasət və İqtisadiyyat İnstitutunda Azərbaycanın Serbiyadakı səfirliyinin dəstəyi ilə Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən **"Multikulturalizm: Azərbaycanın təcrübəsi" mövzusunda konfrans,** professor Zərifə Əlizadə və filologiya üzrə fəlsəfə doktoru Lalə Məcidovanın müəllifi olduqları "Azərbaycanın tanınmış qadınları/serb xalqının

tanınmış qadınları" adlı kitabın təqdimatı keçirilib. Kitab Azərbaycan və serb dillərində nəşr olunub.
Tədbirə Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə də qatılmış və **"Multikulturalizm: sülh şəraitində birgəyaşayışın qarantı"** mövzusunda çıxış etmişdir.

- **Monteneqronun populyar CDM xəbərlər portalında Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadənin "20 Yanvar 1990-cı il: Azərbaycan tarixinin şərəfli səhifəsi" adlı məqaləsi verilib.**

Məqalədə 20 Yanvar faciəsinin tarixi haqqında ətraflı məlumat verilib. Bildirilib ki, bu faciə çökməkdə olan şər imperiyasının dinc xalqımıza qarşı törətdiyi amansız cinayət faktı idi. Sovet ordusu silahsız və günahsız insanlara öz gücünü, əslində isə əsl simasını, xislətini göstərdi.

Vurğulanıb ki, həmin vaxt Azərbaycan informasiya blokadasında olduğuna görə nə qədər çalışsa da, haqq səsini beynəlxalq ictimaiyyətə çatdıra bilmirdi. Belə bir çətin zamanda xalqımızın ümummilli lideri Heydər Əliyev həyatını ciddi təhlükə altına ataraq heç bir təzyiq və təhdidlərə məhəl qoymadan 1990-cı il yanvarın 21-də ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib faciəyə kəskin etirazını bildirmişdi. SSRİ-nin paytaxtında bu cür bəyanatla çıxış etmək böyük cəsarət və fədakarlıq tələb edirdi.

Qeyd edilib ki, Bakıda törədilmiş bu qanlı cinayət sovet ordusunun 1956-cı ildə Budapeştdə, 1968-ci ildə Praqada, 1989-cu ildə Tbilisidə və daha sonra Vilnüsdə törətdiyi cinayətlərin davamı və mahiyyətcə eynisi idi. Həmin gecə Azərbaycan xalqı şəhidlər verdi, lakin sınmadı. Həmin gecə imperiya öz vətəndaşları sayılan dinc insanlara qarşı terror törətdi, lakin xalqın iradəsini qıra bilmədi. Əksinə, getdikcə daha geniş vüsət alan milli-azadlıq hərəkatı mövcud imperiyanın süqutunu tezləşdirdi və bu şərəfli mübarizə 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə nəticələndi. Müstəqilliyin bərpasında 20 Yanvar şəhidlərinin rolu danılmazdır.

Məqalədə deyilir: "Amma elə həmin il, yəni, 1990-cı il oktyabrın 15-də Norveç Nobel Komitəsi 1990-cı ildə sülh üzrə Nobel mükafatının Sovet İttifaqının prezidenti Mixail Qorbaçova verilməsinə dair qərar qəbul etdi. Cinayət, cəzasızlıq və təltif?! Bunu necə başa düşməli: haqsızlığın, ədalətsizliyin təntənəsi, yoxsa ikili standartlarla idarə olunan müasir dünyamızın acı reallığı kimi? Bu, taleyin kinayəsidir.

Beynəlxalq hüququn oyuncağa çevrildiyi bir dövrdə məhz bu "prinsiplər"lə yaşamağa məcburuq. Görünür məşhur "Şah qanun deyil, qanun şahdır" deyimi beynəlxalq hüquq normalarının tənəzzül etdiyi və ikili standartlarla idarə olunan müasir dünyamızda başqa cür səslənir, yaxud yeni məna kəsb edir: "Qanunlar fövqəldövlətlər üçün deyil, fövqəldövlətlərin özləri qanundur!"

Müəllif vurğulayır ki, Azərbaycan xalqı əsrlərboyu qəlbində yaşatdığı milli istiqlal istəyini öz vətənpərvər və fədakar oğullarının qanı bahasına gerçəkləşdirib. Odur ki, azad və müstəqil

yaşamaq bu xalqın halal və qanuni haqqı, 1990-cı ilin 20 Yanvar tarixi isə bu mənada milli tariximizin şərəfli səhifəsidir.

- **Yanvarın 20-də Azərbaycanın Monteneqrodakı diplomatik nümayəndəliyində 20 Yanvar faciəsi ilə bağlı tədbir keçirilib.**

  Tədbirdə çıxış edən Azərbaycan-Monteneqro mədəni və iqtisadi mərkəzinin direktoru Seyran Mirzəzadə bu faciənin ölkəmizin ərazi bütövlüyünə təcavüzün əleyhinə çıxan, azadlıq, müstəqillik uğrunda mücadilə aparan xalqın inamını sarsıtmaq, iradəsini qırıb milli mənliyini məhv etmək məqsədilə törədilmiş qanlı terror aktı olduğunu vurğulayıb. 20 yanvar tarixinin matəm günü olması ilə yanaşı, milli tariximizin şərəfli səhifəsi olduğunu bildirib.

  Faciə qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad olunub, Qanlı Yanvar hadisəsinə dair film nümayiş etdirilib.

  20 Yanvar hadisələri Monteneqronun ən çox oxunulan CDM və Radio Yadran xəbərlər portallarında geniş işıqlandırılıb.

- **2017-ci ilin 20 fevral tarixində Monteneqro Dövlət Universitetinin rektoru xanım Radmila Voyvodiçlə görüş keçirilmişdir.**

  Görüşdə iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq əlaqələrinin hazırkı səviyyəsindən məmnunluq ifadə edilmiş, Monteneqro Dövlət Universitetinin Bakı Dövlət Universiteti və Slavyan Universiteti ilə əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə olunmuşdur. Rektor R.Voyvodiç mövcud əməkdaşlıq əlaqələrindən məmnun qaldığını, gələcəkdə də Azərbaycanla bağlı tədbirlərin keçirilməsinə universitetin dəstək verməyə hazır olduğunu vurğulamışdır. Birgə elmi araşdırmaların, təhsil sahəsində mübadilələrin aparılmasında maraqlı olduqlarını bildirmişdir.

  Universitetlə səmərəli əməkdaşlıq əlaqələrinin davam etdirilməsi və daha da dərinləşdirilməsi, həmçinin universitetin nəzdindəki Geopolitika Mərkəzi ilə Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzi arasında birgə layihələrin həyata keçirilməsi imkanlarının araşdırılması qərara alınmışdır.

- **Fevralın 24-də Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində Azərbaycan Respublikasının Serbiya, Bosniya və Herseqovina və Monteneqrodakı səfirliyinin dəstəyi və təşkilatçılığı ilə Beynəlxalq Sarayevo Universitetində "Xocalı: 25 il davam edən matəm və ədalətə doğru aparan yol" adlı beynəlxalq elmi konfrans keçirilib.**

  Konfransda Rumıniya, Serbiya, Bosniya və Herseqovina, Monteneqro və Azərbaycandan elm adamları, beynəlxalq hüquq üzrə nüfuzlu hüquqşünaslar, tanınmış ictimai-siyasi xadimlər,

millət vəkilləri, qeyri-hökumət təşkilatları, diplomatik korpus və KİV nümayəndələri iştirak ediblər.

Buxarestdə yerləşən Münaqişələrin Qarşısının Alınması Mərkəzinin rəhbəri professor Yulian Çifu, Azərbaycanın Serbiya, Bosniya və Herseqovina və Monteneqrodakı səfiri Eldar Həsənov, Beynəlxalq Sarayevo Universitetinin dekanı professor Mətin Boşnak, Milli Məclisin deputatı, "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin idarə heyətinin üzvü Rövşən Rzayev, Sarayevo Universitetinin professoru, hüquq elmləri doktoru Edin Halapiç, serbiyalı jurnalist Slobodan Samarciya, Monteneqro-Azərbaycan İqtisadi-Mədəni Mərkəzinin direktoru Seyran Mirzəzadə və Monteneqronun sabiq vitse-prezidenti, hüquqşünas Azra Yasaviç konfransda spiker qismində çıxış ediblər.

Natiqlər çıxışları zamanı Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin qəfil hücum etdiyini, mülki insanların xüsusi qəddarlıqla və amansızcasına öldürüldüyünü, bir qisminin ağır yaralandığını, əsir alınıb işgəncələrə məruz qoyulduğunu və itkin düşdüyünü xatırladaraq, Xocalıda törədilən bu cinayətlərin Ermənistanın sistematik xarakter daşıyan zorakılıq siyasətinin bir hissəsi olduğunu, bu siyasətin əsasında ermənilərin irqi üstünlüyünü və azərbaycanlılara qarşı nifrəti aşılayan njdeizm ideologiyasının dayandığını, Xocalıdakı hadisələrin soyqırımı cinayəti kimi tövsif edilməli olduğunu və beynəlxalq hüquq əsasında Ermənistanın və onun siyasi-hərbi rəhbərliyinin bu cinayətlərə görə məsuliyyət daşıdığını birmənalı qeyd ediblər.

**Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru S.Mirzəzadə "Xocalı faciəsi: Cinayətin mənəvi-psixoliji aspektləri" mövzusunda çıxışı zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinin işğalı zamanı dinc əhaliyə qarşı törətdikləri cinayətləri njdeizm ideologiyasının fəsadları kimi qiymətləndirib.**

Konfransın sonunda tədbir iştirakçıları dünya ictimaiyyətinə, BMT, Avropa İttifaqı, Avropa Şurası və ATƏT kimi beynəlxalq təşkilatlara ünvanlanmış bəyanat qəbul ediblər. Bəyanatda konfrans iştirakçıları Ermənistan silahlı qüvvələrinin Xocalıda 25 il öncə xüsusi qəddarlıq və amansızlıqla törətdikləri soyqırımını pisləyib, bu cinayətlərə dair kifayət qədər dəlil və sübutların olduğunu vurğulayıblar. Xocalı soyqırımı barədə dünyada məlumatlılığın artması istiqamətində və bu xüsusda "Xocalıya ədalət!" kampaniyası çərçivəsində aparılan işlər təqdirəlayiq hesab edilib. Dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar Xocalıda törədilən cinayətlərə hüquqi-siyasi qiymət verməyə və cinayətkarları cəzalandırmağa, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında sülh yolu ilə ədalətli həlli məqsədilə səyləri səfərbər etməyə çağırılıb.

Konfrans iştirakçıları həmin gün Sarayevo şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan dövlətinin dəstəyi ilə əsaslı təmir və bərpa edilmiş Dostluq parkında Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər. Abidə önünə əklil qoyan tədbir iştirakçıları faciə qurbanlarının xatirəsini yad ediblər.

Həmçinin Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı Beynəlxalq Sarayevo Universitetinin sərgi zalında bu faciəyə həsr olunmuş foto və rəsm sərgisi təşkil olunub. Sərgidə Heydər Əliyev Fondunun dəstəyi ilə Sarayevoda əsaslı təmir edilmiş kor və məhdud qabiliyyətli uşaqlar üçün Mərkəzin şagirdləri tərəfindən çəkilmiş rəsmlər də nümayiş etdirilib.

Konfransın məhz Bosniya və Herseqovinada keçirilməsi və dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara Sarayevodan Xocalı soyqırımı ilə bağlı müraciətin ünvanlanması xüsusi önəm daşıyırdı. Bosniya və Herseqovinada törədilmiş soyqırım cinayətləri beynəlxalq səviyyədə siyasi və hüquqi qiymətini almışdır, cinayətkarların cəzalandırılması məqsədilə konkret tədbirlər görülmüşdür.

- **Azərbaycan- Monteneqro Mədəni və İqtisadi Mərkəzinintəşkilatçılığı ilə Monteneqronun böyük oxucu auditoriyasına malik olan cdm.me internet xəbər portalında yerli icmalçı Branka Peyoviçin “Nə üçün 26 fevral tarixi Azərbaycanda böyük önəm daşıyır — Xocalı şəhərində soyqırımı törədildiyi gün” başlıqlı məqaləsi dərc edilib.**

Məqalədə Azərbaycan xalqının uzaq keçmişdə olduğu kimi, yaxın keçmişdə də müstəqilliyinin əldə edilməsi və qorunub saxlanılması uğrunda mübarizədə böyük əzablar yaşadığı qeyd edilib. “Bu soyqırımı 25 və 26 fevral 1992-ci il tarixində Azərbaycanın Qarabağ bölgəsində yerləşən Xocalı şəhərində törədilib. Azərbaycan xalqı 26 fevral tarixini Xocalı soyqırımı və milli matəm günü olaraq qeyd edir. Sözügedən tarixdə Azərbaycan xalqına qarşı törədilmiş ən şiddətli cinayətlərdən biri baş verib”, - deyə B.Peyoviç yazır. İcmalçı məqaləsində erməni silahlı qüvvələri tərəfindən törədilmiş Xocalı qətliamının yalnız həmin şəhərin əhalisinə deyil, eləcə də insanlığa, bütün sivilizasiyalara və beynəlxalq sülhə qarşı yönəldiyini qeyd edib.

B.Peyoviç məqaləsində Azərbaycanın Cənubi Qafqazın ən zəngin ölkəsi olması faktının onu hər zaman müstəqillik uğrunda çətin mübarizələrlə qarşılaşdırdığını vurğulayıb. Eyni zamanda, məqalədə İslam dünyasında ilk dəfə dünyəvi və demokratik dövlətin 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və iki il sonra xalqın müstəqillik əzminin yenidən boğulduğu qeyd edilib.

**- 2017-ci il fevralın 15-dən etibarən Monteneqronun Podqoritsa, Budva və Herseq Novi şəhərlərində Xocalı soyqırımını əks etdirən bilbordlar və panellər yerləşdirilib. Eyni zamanda, Monteneqronun müxtəlif şəhərlərinin mərkəzi yerlərində əhaliyə Monteneqro dilində Xocalı soyqırımı haqqında xüsusi hazırlanmış məlumat vərəqələri paylanılıb. Sözügedən bilbord və panellər martın 1-dək saxlanılmışdır.**

**- Martın 3-də Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadənin Moderator.azinformasiya portalında "Beynəlxalq təşkilatlar bu laqeydliyə son qoyana qədər dayanmadan iş aparmalıyıq" başlıqlı müsahibəsi dərc olunub. Müsahibədə S.Mirzəzadə Xocalı faciəsi ilə bağlı Sarayevoda keçirilmiş tədbirin mahiyyəti barədə geniş məlumat vermişdir.**

**- Martın 10-da Mərkəzin direktoru Seyran Mirzəzadə Monteneqronun İqtisadiyyat Nazirliyi və Almaniyanın "Hanns Seidel" Fondu tərəfindən təşkil olunan konfransda Azərbaycanın "Made in Azerbaijan" milli brendinin təşviqi modelini təqdimat etmişdir.**

- **Martın 24-də Podqoritsa şəhərində Azərbaycan- Monteneqro Mədəni və İqtisadi Mərkəzinin, Türkiyənin Yunus Əmrə və Çinin Konfutsi institutlarının birgə təşkil etdikləri "İpək Yolu" festivalının açılış mərasimi keçirilib.Martın 30-dək davam edən festival çərçivəsində Azərbaycan Rəssamlar İttifaqının üzvü, tanınmış rəssam Darvin Vəlibəyovun "Təəssüratlar" sərgisi nümayiş olunub.**

Tədbirdə Monteneqronun mədəniyyət naziri, dövlət və ictimai xadimləri, diplomatik korpusun təmsilçiləri, ziyalılar, mətbuat nümayəndələri iştirak ediblər.

Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə tədbirdə çıxış edərək qədim İpək Yolunun bir sıra ölkələrin, o cümlədən Azərbaycanın tarixində rolundan, İpək Yolunun bərpasına dövlətimizin töhfələrindən, Azərbaycan və Monteneqronun multikulturalizm ənənələrindən danışıb. Azərbaycan, Türkiyə və Çin mədəniyyət mərkəzlərinin və institutlarının ilk dəfə müştərək tədbir keçirməsinin əhəmiyyətini vurğulayan natiq bu ənənənin davam etdiriləcəyinə ümidvar olduğunu bildirib. Direktor tanınmış rəssam Darvin Vəlibəyovun yaradıcılığı haqqında ətraflı məlumat verib.

Tanınmış rəssam Darvin Vəlibəyovun sərgisi, xüsusilə Azərbaycan və Monteneqro mənzərələri, həmçinin Xəzər və Adriatik motivləri əsasında çəkdiyi əsərlər böyük maraqla qarşılanıb. Azərbaycan mədəniyyətinin təbliğində töhfələrinə görə Darvin Vəlibəyova Monteneqro-Azərbaycan İqtisadi-Mədəni Mərkəzi adından təşəkkürnamə təqdim olunub.

- **23 mart tarixində Azərbaycan- Monteneqro Mədəni və İqtisadi Mərkəzinin təşkilatçılığı ilə Podqoritsa şəhərində təntənəli Novruz bayramı tədbiri keçirilib.**

Tədbirdə Monteneqronun hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, dövlət və ictimai xadimləri, Podqoritsada fəaliyyət göstərən diplomatik korpusun və dini icmaların, siyasi partiyaların təmsilçiləri, bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər.

Tədbir çərçivəsində Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə tərəfindən iki ölkə arasında iqtisadi və mədəni əlaqələrin inkişafına töhfələrinə görə “Azmont Investments” şirkətinə, Azərbaycanın mətbəx mədəniyyətini Monteneqroda yüksək səviyyədə təmsil etdikləri üçün azərbaycanlı kulinarlara təşəkkürnamələr təqdim olunub.

Sonra qonaqlara Azərbaycandan Monteneqroya ezam olunmuş kulinariya üzrə mütəxəssislər tərəfindən hazırlanmış milli mətbəximizin ləziz təamları və süfrəni bəzəyən bayram şirniyyatları təqdim edilib, milli musiqimizdən nümunələr səsləndirilib.

- **4 may tarixində Monteneqronun paytaxtı Podqoritsada yerləşən Monteneqro Milli Teatrında “Əli və Nino” filminin təqdimatı keçirilib.**

  Tədbirdə Monteneqronun dövlət, hökumət və ictimai xadimləri, Podqoritsada fəaliyyət göstərən diplomatik korpusun və dini icmaların, siyasi partiyaların təmsilçiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər.

  Tədbirdə çıxış edən Monteneqro Milli Teatrının direktoru Zorica Kraly Monteneqro ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib və bugünkü tədbirin Monteneqro-Azərbaycan münasibətləri üçün mühüm mədəni hadisə olduğunu bildirib. O, bu filmin nəinki iki gəncin məhəbbətindən, eləcə də Azərbaycanın qədim tolerantlıq və multikulturalizm ənənələrindən bəhs etdiyini vurğulayıb.

  Sonra film nümayiş etdirilib.Film yerli mətbuatın da böyük marağına səbəb olub.

- **6 may tarixində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə Podqoritsada “Heydər Əliyev Kuboku” uğrunda futbol və həndbol yarışları keçirilib.**

  Azərbaycan-Monteneqro Mədəni və İqtisadiMərkəzinin direktoru Seyran Mirzəzadə tədbir iştirakçılarına zəngin siyasi təcrübəyə malik olan Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin qorunması, gücləndirilməsi sahəsində misilsiz xidmətləri barədə məlumat verib, bugünkü Azərbaycanın məhz onun əsasını qoyduğu sarsılmaz təməl üzərində daha da möhkəmləndiyini vurğulayıb. Ulu öndər Heydər Əliyevin ölkəmizdə idmanın inkişafına xüsusi əhəmiyyət verdiyi və bunun nəticəsində Azərbaycanın bir sıra mötəbər beynəlxalq yarışlara ev sahibliyi etdiyi, o cümlədən Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyi diqqətə çatdırılıb.

  Sonda Azərbaycanın Monteneqrodakı diplomatik nümayəndəliyinin müşaviri Anar Əcəmov, “Azmont Investments” şirkətinin icraçı direktoru Rəşad Əliyev, Monteneqronun tanınmış

idmançıları Qoran Cukanoviç və Srdan Mrvalyeviç tərəfindən qaliblərə mükafatlar təqdim edilib.

Tədbir yerli mətbuatda geniş işıqlandırılıb.

- **28 may tarixində Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzitərəfindən Monteneqronun böyük oxucu kütləsinə malik "CDM" internet portalında "99 il əvvəl Azərbaycan İslam dünyasının ilk demokratik dövləti olmuşdur" başlıqlı məqalə dərc edilib.**

  Məqalədə qeyd olunur ki, Azərbaycan xalqının çoxəsrlik məşəqqətli tarixində şərəflə andığı mübarizə günlərinin çox olmasına baxmayaraq, 28 may 1918-ci il xüsusi yer tutur. Belə ki, bu gündə Azərbaycan müsəlman Şərq dünyasında ilk demokratik parlamentli respublika olub. Qısa müddət yaşamasına rəğmən, İstiqlaliyyət Bəyannaməsində əksini tapmış mütərəqqi ideyaların bir sıra ölkələr üçün örnək olduğu bildirilib.

- **Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzi 3-7 oktyabr tarixlərində Podqoritsada təşkil olunan Üçüncü Beynəlxalq Kitab sərgisində iştirak etmişdir.**

- **18 oktyabr tarixində Azərbaycan - Monteneqro Mədəni və İqtisadi MərkəziAzərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününü Podqoritsanın "18. oktyabr" məktəbi ilə birlikdə qeyd etmişdir.**

- **2 noyabr tarixində Monteneqronun "Volimpodgoricu.me", "Dijaspora.news" xəbər portallarında Azərbaycan–Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadənin "Azərbaycanda dünyanın 100 layihəsindən biri hesab edilən "Dəmir İpək Yolu"nun – Bakı-Tbilisi-Qars xəttinin açılışı olub" adlı məqaləsi dərc edilib.**

  Məqalədə Bakı–Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin təntənəli açılış mərasimi barədə məlumat verilir. Bu dəmir yolunun strateji əhəmiyyəti vurğulanır, layihə üzərindəki ölkələrin nəqliyyat və tranzit əlaqələrini genişləndirəcəyi və asanlaşdıracağı bildirilir, dövlət və hökumət başçılarının çıxışlarından sitatlar gətirilir.

  Müəllif əhəmiyyətinə görə qlobal səciyyə daşıyan və Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan BTQ-nin qədim İpək Yolunun polad magistrallar üzərində bərpası olduğunu, gələcəkdə Balkan ölkələri ilə Xəzər regionu arasında nəqliyyat və ticarət əlaqələrinin dərinləşməsinə, eləcə də regionda turizmin inkişafına təkan verəcəyini qeyd edir.

- **Azərbaycan – Monteneqro Mədəni və İqtisadi Mərkəzi ilə Monteneqronun İctimai Radio və Televiziya Şirkəti arasında imzalanmış razılaşmaya əsasən, noyabrın 12-də və dekabrın 31-də "Əli və Nino" filmi Monteneqronun İctimai Radio və Televiziya Şirkətinin birinci kanalında (RTCG1) bu ölkənin dilində subtitrlərlə nümayiş etdirilib.**

- **17 noyabr tarixində paytaxt Podqoritsada "Bir günəş altında" sənədli filminin təqdimatı keçirilib.**

  Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən çəkilən ekran əsəri Azərbaycanda yaşayan, müxtəlif mədəniyyət, adət-ənənə, fərqli dil və dini etiqada sahib olan azsaylı xalqların və etnik qrupların həyatından bəhs edir. Layihənin rəhbəri və filmin baş prodüseri Arzu Əliyevadır.

  Təqdimatda Monteneqronun dövlət qurumlarının, diplomatik nümayəndəliklərinin, qeyri-hökumət təşkilatlarının və KİV-lərin təmsilçiləri iştirak ediblər.

  Film böyük marağa səbəb olub və yerli KİV-lərdə işıqlandırılıb.

- **Dekabrın 9-da "Milad xeyriyyə bazar"ı keçirilib.** Xeyriyyə yarmarkası monteneqroluları xarici dövlətlərin tarixi, mədəniyyəti və mətbəxi ilə yaxından tanış etmək, habelə iştirakçılar tərəfindən satışa çıxarılan milli suvenirlərdən əldə olunan vəsaitin Monteneqronun uşaq evləri və xəstəxanalarına köçürülməsi məqsədi daşıyıb.Yarmarkada ölkəmizin Monteneqrodakı diplomatik nümayəndəliyi Azərbaycan-Monteneqro mədəni və iqtisadi əlaqələr mərkəzi ilə birgə iştirak edib. Milli suvenirlərimiz, mətbəximizin dadlı təamları, xüsusən paxlava və şəkərbura iştirakçılar tərəfindən maraqla qarşılanıb.Azərbaycan stendinə yaxınlaşan Monteneqro rəsmilərinə burada nümayiş olunan məhsullar haqqında məlumat verilib.Xeyriyyə bazarında Azərbaycanın təqdimatı yerli KİV-lərdə geniş işıqlandırılıb.

- **Dekabrın 18-də Palitranews.az informasiya portalında Azərbaycan–Monteneqro Mədəni və İqtisadi Əlaqələr Mərkəzinin direktoru Seyran Mirzəzadənin "Monteneqrolular Azərbaycan haqqında kifayət qədər məlumatlıdırlar" başlıqlı müsahibəsi dərc olunub. Müsahibədə S.Mirzəzadə Azərbaycan – Monteneqro əlaqələri və Mərkəzin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.**

**2017-ci ildəki fəaliyyətlə bağlı internet linkləri:**

https://azertag.az/xeber/1022301

https://azertag.az/xeber/1028167

https://azertag.az/xeber/1028530

https://azertag.az/xeber/1038474

https://azertag.az/xeber/1038751

https://azertag.az/xeber/1045565

https://azertag.az/xeber/1057577

https://azertag.az/axtarish?search=monteneqro&page=3

https://azertag.az/xeber/1065526

http://palitranews.az/news.php?id=78927#.WjjLT9kfO4s.facebook

https://mnemagazin.me/2017/11/10/predstavljamo-azerbejdzan-kao-model-multikulturalnog-drustva/

http://www.dijaspora.news/u-azerbejdzanu-otvoren-jedan-od-100-najvecih-svjetskih-projekata-zeljeznica-na-putu-svile-baku-tbilisi-kars/

http://moderator.az/news/177542.html

https://m.cdm.me/svijet/planeta/prije-99-godina-azerbejdzan-je-postao-prva-demokratska-drzava-u-islamskom-svijetu/

https://m.cdm.me/kultura/u-crnogorskom-narodnom-pozoristu-organizovana-prezentacija-filma-ali-nino/

http://rtcg.me/…/u-podgorici-otvoren-festival-put-svile.html

https://mnemagazin.me/…/podgorica-otvorena-izlozba-put-svi…/

http://aa.com.tr/…/u-podgorici-otvoren-festival-put-…/779162

http://rtcg.me/…/…/sjutra-otvaranje-festivala-put-svile.html

http://prcentar.me/index.p…/pres-konferencije/…/1133-video-t

http://vetenim.info/?p=28771

http://azerbaijan.shafaqna.com/AZ/AZ/385520

https://azertag.az/xeber/Monteneqroda_Bir_gunes_altinda_senedli_filminin_teqdimati_kechirilib-1113067

https://azertag.az/xeber/Ali_ve_Nino_filmi_Monteneqronun_Ictimai_Televiziyasinda_numayis_olunub-1110997

http://palitranews.az/news.php?id=76850

https://azertag.az/xeber/Monteneqro_oxuculari_Baki_Tbilisi_Qars_demir_yolu_xettinin_strateji_ehemiyyeti_barede_melumatlandirilib-1108333

http://moderator.az/news/170918.html

http://azxeber.com/az/monteneqroda-heyder-eliyev-kuboku-adli-turnir-ba/

http://koordinat.az/meqale.php?id=21673

https://azertag.az/xeber/1057951

https://azertag.az/xeber/Podqoritsa_seherinde_Ali_ve_Nino_filminin_teqdimati_kechirilib-1057577

https://azertag.az/xeber/Novruz_bayrami_Podqoritsada_tentene_ile_qeyd_olunub-1045565

http://moderator.az/news/173179.html

http://koordinat.az/meqale.php?id=19904

http://www.gununsesi.info/podqoritsada-ip%C9%99k-yolu-festivali-acildi/

http://turkustan.info/2017/03/26/podqoritsada-ip%C9%99k-yolu-festivali-acilib-fotolar/

http://xeber100.com/ip%C9%99k-yolu-festivalinin-acilis-m%C9%99rasimi-kecirilib/

https://azertag.az/xeber/Podqoritsada_Ipek_Yolu_festivali_achilib-1045442

http://m.apa.az/en/azerbaijan-politics/foreign-news/president-margvelashvili-azerbaijan-georgia-turkey-format-is-very-effective

https://video.azertag.az/video/49101#.WLKzmS-2yXQ.facebook

https://azertag.az/xeber/1038751

https://azertag.az/xeber/930366

https://cdm.me/svijet/bliski-istok/dan-kada-je-ucinjen-genocid-u-gradu-hodzali/